

# Ulu öndər Heydər Əliyevin siyasi irsi zəfər yolumuzu nurlandırır

***Bütün fəaliyyəti dövründə xalqımızın və dövlətimizin maraqlarını qorumuş, Azərbaycanın hərtərəfli inkişafı uğrunda mübarizə aparmış, fədakarlıq nümayiş etdirmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, milli birliyimizin təmini, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi görmüş Ümummilli Liderimiz Heydər Əliyev bəşər tarixində bir çox dövlətin başçısının öz ölkəsi üçün edə bilmədklərini Azəbaycan üçün reallığa çevirmişdir. Hələ sovetlər dönəmində – 1969-1982-ci illərdə müttəfiq respublikalar arasında kənd təsərrüfatı təmayüllü bir ölkə kimi tanınan Azərbaycanı böyük sənaye meydançasına çevirmiş ulu öndər qısa zaman kəsiyində ölkəmizin şöhrətini bütün dünyaya tanıtdı. O dövr üçün ən müasir texnologiyalara əsaslanan sənaye müəssisələrinin açılışı, ən gəlirli sahələrdə yeniliklərin tətbiqi, islahatların aparılması ölkəmizi varlı bir respublikaya çevirdi. İqtisadi yüksəlişlə yanaşı mənəvi dəyərlərin qorunması, dilimizin rəsmi dövlət dili kimi ölkə Konstitusiyasında təsbit olunması, milli özünüdərkin formalaşdırılması məhz ümummilli lider Heydər Əliyevin unudulmaz fəaliyyətinin məntiqi nəticəsi kimi tarixə həkk oldu.***

Ümummilli lider Heydər Əliyevin qətiyyəti və iradəsi Azərbaycanımızı xilas etdi, müstəqilliyimizi qorudu, xalqımızda gələcəyə inam qazandırdı. XX əsrin sonunda SSRİ-nin dağılmasının nəticəsi olaraq, digər müttəfiq respublikalarla yanaşı, Azərbaycan da öz müstəqilliyinə qovuşdu. 1991-ci il oktyabrın 18-də "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə müstəqilliyini elan etmiş Azərbaycan dövləti bir əsrə yaxın həsrətini çəkdiyi azadlığına qovuşsa da, dövlət müstəqilliyinin qorunub saxlanılması dahi rəhbərimiz Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı ilə reallaşmışdır. Belə ki, 1991-1992-ci illərdə, habelə 1993-cü ilin birinci yarısında ölkəmizdə yaranmış vəziyyət, müstəqillikdən çox anarxiyanı xatırladırdı. Bir-birini sürətlə əvəz edən hakimiyyət rəhbərləri xalqın ürəyində həmişə yaşatdığı və həsrətində olduğu müstəqilliyi qoruyub saxlamaq, habelə möhkəmləndirmək üçün zəruri tədbirlər görmək, ölkənin iqtisadi gücündən və potensialından səmərəli istifadə etmək əvəzinə, milli maraqları şəxsi mənafeyə qurban verərək, cinayətkarcasına səhlənkarlıq nümayiş etdirir, fəaliyyətdə və inkişafda olan hər bir şeyi dağıdırdılar. Anarxiya və hər cür qanunsuzluqlar dövrü kimi səciyyələndirilən 1991-1993-cü illər ərzində Azərbaycan dövlətçiliyi ciddi təhlükələrə məruz qaldı. Həmin dövrdə ulu öndər Heydər Əliyev köməksiz, Ermənistanın blokadasına düşmüş Naxçıvanın yaşaması üçün fədakarlıqla mücadilə aparırdı. Dövrün hakimiyyəti isə Naxçıvanın qorunması üçün bütün gücünü səfərbər edən ulu öndər Heydər Əliyevə qarşı təxribatlar törədir, təzyiqlər göstərirdi. Ərazilərimizin ermənilər tərəfindən işğal edilməsinə, ölkədəki siyasi böhranın, xaosun aradan qaldırılmasına cəhd etmək yerinə, Naxçıvanda sabitliyi və həmrəyliyi formalaşdıraraq özünümüdafiəni təşkil etmiş Heydər Əliyevə qarşı mübarizə aparan AXC-Müsavat cütlüyü qısa zamandan sonra ölkədə idarəçiliyi tam itirdi. 1993-cü ilin aprelində Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı, ölkənin vətəndaş qarşıdurmasının bir addımlığına sürüklənməsi, hətta silahlı birləşmələrin komandirlərinin belə hakimiyyətə itaətsizlik nümayiş etdirməsi xalqın səbir kasasını daşırtdı. Həmin dövrdə hər kəs anlayırdı ki, xalqımızı, gənc dövlətimizi yalnız Azərbaycanın böyük oğlu Heydər Əliyevin qətiyyəti və iradəsi xilas edə bilərdi, məhz onun ən çətin şəraitdə düzgün qərar qəbuletmə bacarığı nəticəsində Azərbaycan məhv olmaq təhlükəsindən qurtula, müstəqilliyini qoruyub saxlaya bilərdi. 1993-cü il iyulun 15-də Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması müstəqilliyimizin müqəddəratında çox əhəmiyyətli rol oynadı. Həmin gün xalqın tələbi ilə milli bayram – Milli Qurtuluş Günü kimi tariximizə yazıldı.

Ulu öndər Heydər Əliyevin səyi ilə əldə olunan siyasi sabitlik gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrildi. Qısa müddət ərzində vətəndaş müharibəsinin, separatizmin ölkəni parçalamaq cəhdlərinin qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görüldü. Azərbaycanın bütövlüyü təmin edildi və günahkarlar qanun qarşısında cavab verdilər. Silahlı qarşıdurmalardan, vətəndaş müharibəsi təhlükəsindən ən çox əziyyət çəkən xalq idi. Bu baxımdan ulu öndər Heydər Əliyev dövlətin xilaskarı olmaqla yanaşı, həm də millətinin taleyinin xilaskarına çevrildi. Heydər Əliyev həm ölkəni məhv olmaqdan qoruya bildi, həm də buna paralel olaraq müstəqil dövlət quruculuğu kursunu davamlı olaraq reallaşdırdı. Ümummilli liderimizin müdrikliyi, dünyada gedən proseslərə dərindən bələd olması, baş verən hadisələrin səbəblərinin təhlili zamanı əvəzolunmaz məharət və bacarığı, hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək səriştəsi öz bəhrəsini verdi və böyük xilaskarımızın Bakıya gəlməsindən bir neçə ay sonra vəziyyətin sabitləşməsi, daha ağır nəticələrin qarşısının alınması mümkün oldu: millət və dövlət dəhşətli bəladan qurtuldu. Ulu öndərin apardığı uğurlu siyasət daxili sabitliyi təmin etdi, ölkəmizdə milli mənafeyin qorunması, ordu quruculuğu, milli həmrəyliyin təmini yönündə əsaslı işlər başlandı. Ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycanda bütün başqa dövlətlərdən fərqli olaraq, daxili ictimai-siyasi sabitlik, cəmiyyətin bütün təbəqələrinin həmrəyliyi, birliyi əsas şərtdir". Beləliklə, əldə olunan siyasi sabitlik gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrildi.

Ulu öndər Heydər Əliyevin apardığı uğurlu siyasi kurs Azərbaycanın müasir iqtisadi inkişafının möhkəm təməllər üzərində qurulmasına yol açdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ölkə qarşısında duran ən vacib çağırışlardan birinin iqtisadiyyatın ayrı-ayrı sahələrinin dirçəldilməsi olduğunu bəyan etdi. 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə – "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın milli inkişaf yolunun ilk konsepsiyasına çevrildi. Bu müqavilənin imzalanması ölkəyə investisiya axınını təmin etməklə yanaşı, xarici sərmayənin çoxşaxəliliyini şərtləndirdi. Ulu öndər Heydər Əliyevin apardığı uğurlu siyasi kurs Azərbaycanın investisiya üçün münbit bir ölkə olmasına xarici investorlarda böyük bir əminlik yaratdı. Beləliklə bu müqavilə Azərbaycan iqtisadiyyatının qısa zaman kəsiyində dirçəlməsini, ölkəmizin qarşısında duran vəzifələrin həllinə zəmin formalaşdırdı. Ulu öndərimiz Heydər Əliyevin neft strategiyasının şah əsəri sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri layihəsi bu gün qlobal proseslərin ən əhəmiyyətli tərəflərindən biri kimi Azərbaycanın dünya üçün əhəmiyyətini daha da artırır. Həmin qanlı-qadalı illərdə ümummilli lider daim vurğulayırdı ki, Bakı-Tbilisi-Ceyhan layihəsi bütövlükdə Avrasiyanın geosiyasi dinamikasını dəyişəcək. Bu layihə geniş bir məkanda inkişafa, əməkdaşlığa və qarşılıqlı faydalı əlaqələrin yeni səviyyəyə yüksəlməsinə xüsusi töhfə verəcək. O cümlədən təhlükəsizlik sahəsində keyfiyyət dəyişikliyi edəcək. Zaman ulu öndərin tam haqlı olduğunu təsdiq etdi. İndi Azərbaycan bir neçə əhəmiyyətli beynəlxalq enerji, nəqliyyat layihələrinin təşəbbüskarıdır. "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin reallaşdırılmasında mühüm söz sahibidir, "Yeni İpək Yolu" layihəsində önəmli rol oynayır. Bütün bunlar Avrasiyanın geosiyasi xəritəsində ciddi dəyişikliklərə təkan verməkdədir. Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin reallaşdırılmasından sonra Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi regionun inkişafında xüsusi yerə malik olan layihələr həyata keçirildi.

Qeyd etmək lazımdır ki, Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və ona bitişik ərazilərimizin azad edilməsi, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin əsas xəttini təşkil edib. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ulu öndərimz deyirdi: "Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir".

Ümummilli lider Heydər Əliyev Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. O, istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmasını xüsusi vurğulayır, beynəlxalq ictimaiyyətin diqqətini bu problemin həllinə cəlb edirdi. Məhz ulu öndərimizin səyi nəticəsində dünyanın aparıcı təşkilatları Ermənistanın təcavüzkar siyasətini pisləmiş, Azərbaycanın ərazi bütövlyünü dəstəkləmişdir.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayarkən andiçmə mərasimindəki tarixi çıxışında Heydər Əliyev demişdi: "İşğal, qaçqınların vəziyyəti respublikanın ictimai - siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır. Əmin ola bilərsiniz ki, mən bütün səylərimi səfərbər edib, Azərbaycan xalqının istədiyinə nail olacağam".

Heydər Əliyev Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi prinsipləri çərçivəsində həlli üçün səylərini bir an da olsa dayandırmırdı. Heydər Əliyevin iradəsi, münaqişənin nizamlanması ətrafında keçirdiyi danışıqlarda səsləndirdiyi arqumentlər Azərbaycanın milli maraqlarının qorunmasını özündə ehtiva edirdi. Heydər Əliyev hər zaman bəyan edirdi ki, münaqişənin tənzimlənməsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyünə əsaslanmayan heç bir təklif və layihə müzakirə obyekti belə ola bilməz.

Heydər Əliyevin ümummilli problemimizin həlli üçün göstərdiyi səylər tək diplomatiya ilə məhdudlaşmırdı. Danışıqların aparılması ilə yanaşı, ulu öndər Azərbaycan ordusunun formalaşması və gücləndirilməsinə xüsusi diqqət yetirirdi. 1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində Azərbaycanda milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddət ərzində vahid komandanlığa tabe olan nizami ordu formalaşdı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan qüdrətli ordudur. Bu, həmin ordudur ki, qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində Qarabağda zəfər bayrağımızı qaldırdı. Bəli, ulu öndər Heydər Əliyev yolunun uğurlu davamçısı Prezident İlham Əliyevin 2020-ci il sentyabrın 27-də erməni təxribatlarına qarşı əks-hücum əməliyyatlarına start verilməsi ilə bağlı qərarı cəmi 44 gün ərzində Azərbaycanın ərazi bütövlüyünün təmini ilə nəticələndi. İşğal altındakı ərazilərimiz, rayonlarımız, şəhərlərimiz, kəndlərimiz düşməndən təmizləndi, ölkəmiz yenidən bütövləşdi. Həmin 44 gün ərzində istər döyüş meydanında, istərsə də diplomatik müstəvidə fenomenal zəfərlər qazanan Ali Baş Komandanımız bütün dünyaya xalq-hakimiyyət-ordu birliyinin bütün uğurların əsas təminatçısı olduğunu əməli fəaliyyətlə nümayiş etdirmiş oldu. Dünyanın aparıcı media strukturlarına müsahibələr verən Prezident İlham Əliyev Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırdı. Dünya ictimaiyyətinin diqqətini ölkəmizin haqq savaşına yönəltdi. Prezidentimizin illərlə apardığı uğurlu xarici siyasət kursu Azərbaycanın beynəxalq dəstəyini təmin etdi. Nəticədə isə "Qarabağ Azərbaycandır!" şüarını özünün vahid amalına çevirən xalqımız qalib Ali Baş Komandanın rəhbərliyi ilə 2020-ci ildə ən böyük qələbəsinə – Qarabağ qələbəsinə imza atmış oldu!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs milli birliyimizin güclənməsini və Vətən müharibəsində mühüm amilə çevrilməsini şərtləndirdi.

44 günlük Vətən müharibəsində qazanılan qələbə Azərbaycanın müasir tarixinin ən şanlı səhifəsidir. Təbii ki, bu qələbəni şərtləndirən amilləri sadaladığımız zaman bir mühüm məqama – əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan milli birliyimizə, milli həmrəyliyimzə xüsusi önəm verməliyik.

Milli-mənəvi dəyərlər Azərbaycan xalqının milli sərvətidir. Bu mənada, xalqımızın sarsılmaz birliyi məhz milli-mənəvi dəyərlərimizə söykənir. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanımızın əmri ilə erməni təxribatlarına qarşı əks-həmlə əməliyyatları başlayan kimi xalqımız bir yumruğa çevrilməyi bacardı. Siyasi mənsubiyyətindən, dini, milli fərqlərindən, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qələbə uğrunda mübarizəyə qoşuldu. Azərbaycanda yaşayan bütün dini konfessiyalar, icmalar, etnik azlıqlar, siyasi partiyalar, qeyri-hökumət təşkilatları dövlətin, ölkə Prezidentinin ətrafında sıx birləşdiyini, Qarabağın azadlığı uğrunda mübarizəni dəstəklədiyini bəyan etdi. Bu, bəlkə də bəşər tarixində görünməmiş bir hadisə idi. Bir xalqın, bir millətin öz haqq savaşı uğrunda "dəmir yumruq" kimi düşmənə qarşı birləşməsi qələbəmizin təminində əhəmiyyətli rol oynadı. Hər zaman qürurla səsləndirdiyimiz çoxmillətli ölkə olmağımız, dini azadlıqlara malik ölkə olmağımız bir daha əyani şəkildə öz üstünlüyünü ortaya qoydu. Düşmənə qarşı səngərdə birləşən və Azərbaycanın bütövlüyü uğrunda canını ortaya qoyan oğullarımız məhz milli-mənəvi dəyərlərimizin bizə verdiyi gücün, qüvvənin sayəsində, Prezidentimizin "Mən hər bir azərbaycanlının Prezidentiyəm", "Biz birlikdə güclüyük" və "Qarabağ Azərbaycandır" kəlamlarını özləri üçün həyat fəlsəfəsinə çevirdilər. Belə bir gücün qarşısında isə heç bir düşmən davam gətirə bilməzdi. Bu birlik, bu inam Azərbaycanın qəti və şanlı Zəfəri ilə nəticələndi.

Bu milli birliyin əsas komponentlərindən sayılan siyasi həmrəyliyimiz də dünya üçün yeni bir nümunəyə çevrildi. 2020-ci ilin əvvəlindən daha yüksək vüsət alan siyasi islahatlar ölkəmizdə siyasi dialoq mühitinin daha yüksək səviyyəyə çatdırılmasında əsaslı rol oynadı. Qısa zaman çərçivəsində siyasi islahatlar, kadr islahatları daha təkmil və çevik idarəetmənin formalaşdırılmasına yol açdı. Təbii ki, bu islahatlar ölkəmiz üçün yeni inkişaf mərhələsi yaratmaqla yanaşı, Azərbaycanın siyasi inkişaf tarixində mühüm bir məqam kimi yadda qaldı. 2020-ci ilin fevral ayında keçirilmiş VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər ölkəmizdəki yeni siyasi sistemin formalaşmasında əsaslı rol oynadı. Yeni yaranan siyasi konfiqurasiyanın əsasında isə Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək kimi mühüm çağırışlar dayanırdı. Məhz bu siyasi həmrəylik ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələrin mütləq əksəriyyətinin milli maraqlarımız ətrafında sıx birləşməsinə yol açdı. 2020-ci ilin iyulunda ermənilərin Azərbaycan – Ermənistan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində hərbi təxribatlar törətdiyi zaman 43 siyasi partiya "Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair bəyanatı"nı imzaladı. Sentyabrda başlanan Vətən müharibəsinin ilk günündə isə 50 siyasi partiyanın siyasi həmrəylik nümayiş etdirərək birgə bəyanat imzalaması Azərbaycanda yaşanan siyasi birliyin təcəssümünə çevrildi. Siyasi partiyaların rəhbərləri möhtərəm Prezidentimizin apardığı siyasəti dəstəklədiklərini və status-kvonun dəyişməz qalmasının mümkünsüz olduğunu bildirərək yekdilliklə Prezidentin yanında olduqlarını xüsusi olaraq vurğuladılar. Bu bəyanat məhz ulu öndərimizin bizə miras qoyduğu milli birlik yolunun təntənəsinə çevrildi. Ölkənin 50 siyasi partiyasının Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olduqlarına dair bəyanatı milli və siyasi həmrəyliyin parlaq göstəricisi oldu.

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinin ən yaddaqalan günlərindəndir. Həmin gün 30 illik həsrətdən sonra Azərbaycanın incisi Şuşa düşmən işğalından azad edildi. Həmin gün xalqa müraciət edən müzəffər Ali Baş Komandanımız öz hisslərini bu fikirlərlə ifadə etdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!"

Bəli Heydər Əliyev yolunun davamçısı, Azərbaycanı qələbəyə çatdırmış, Zəfər qazandırmış Prezident, Ali Baş Komandan İlham Əliyev ümummilli liderimizin arzularını yerinə yetirir, Azərbaycanı bütövləşdirir, yüksəldir, inkişaf etdirir. Bu isə təsadüfi deyil. Azərbaycanın mövcudluğu tarixində xalqımızın birləşməsi, dövlətçiliyimizin möhkəmləndirilməsi, ərazi toxunulmazlığımızın təmin edilməsi, insanların rifahının yaxşılaşdırılması uğrunda ardıcıl, məqsədyönlü mübarizə aparan və Azərbaycanın milli qürurunu özünə qaytaran, dövlətimizi öz tükənməz sərvətlərinin sahibi edən ümummilli liderimiz Heydər Əliyev 2003-cü ildə xalqa müraciətində deyirdi: "Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək". Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan xalqının müdriklik, mərdlik və cəsarət simvolu Heydər Əliyev kursunun layiqli davamçısı olmaqla, müstəqilliyimizin əbədiliyinin, dövlətçiliyimizin inkişafının və beynəlxalq nüfuzunun daim artmasının, xalqın rifah halının durmadan yaxşılaşmasının təminatlarını daha da möhkəmləndirdi, ərazi bütövlüyümüzü təmin etdi, son 200 ildə itirilmiş torpaqlarımızı azad etdi. Xalqımız bir daha əmin oldu ki, müstəqilliyin möhkəmləndirilməsi, dövlətçiliyin inkişafı, əhalinin rifahının yaxşılaşdırılması sahəsində Heydər Əliyev siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsinin təminatı etibarlı əllərdədir. Bu gün xalqımız ulu öndər Heydər Əliyevin siyasi varisi – praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət, qalib Sərkərdə kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Prezident İlham Əliyev isə hər zaman xalqının dəstəyini, gücünü yanında hiss edib: "Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqın dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir".

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***